| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL105 Şərq mühitində Azərbaycan ədəbiyyatı - 3 kredit |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Magistr |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.ü.f.d. Rüstəm Lazımov |
| | **E-mail:** | Rustam.lazimov@gmail.com |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Məsləhət saatları** | Tələbələr ilə razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | **Azərbaycan ədəbiyyatı** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Seçmə** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1.Qurani Kərim. Tərcümə - Z.Bünyadov; V.Məmmədəliyev<br>2. Azərbaycan ədəbiyyatı tarixi (6 cilddə) 2-ci cild, Bakı, Elm, 2007, 632 s<br>3. Əlyar Səfərli, Yusif Xəlilov.Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, Maarif, 1998<br>4. Agah Sirri Levend. Divan edebiyyatı. İstanbul, Enderun kitab evi,1984<br>5.Tahir-ül Mevlevi. Edebiyyat lügati.İstanbul,Enderun kitab evi,1973<br>6.İskender Pala. Ansiklopedik divan şiiri sözlügü. Cilt: I-II Ankara Akçağ, 1989<br>7.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991<br>8. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010<br>9. Quliyev T. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu. AMEA M. Füzuli ad. Əlyazmalar İnstitutu. Bakı, Nurlan, 2011<br>10. Cümşüdoğlu N. Füzulinin sənət və mərifət dünyası. Tehran, Süruş, 1997<br>11. Hacıyev T. Füzuli: dil sənətkarlığı. Bakı, Gənclik. 1994.<br>12.Əkrəm C. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, Elm,1977<br>13. Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında bədii dil (poetik sintaksis). Dil və ədəbiyyat jurnalı, Bakı, 1998<br>14. Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. Dil və ədəbiyyat jurnalı,Bakı,1999<br>15. www.tdvia.org.-İslam Ansiklopedisi<br>16.www.anl.az.-Milli kitabxana<br>17.www.kultaz.com.-azəridilli mədəniyyət və ədəbiyyat saytı<br>18.www.lit.az.-azəridilli ədəbiyyat saytı<br>19.www.kitabxana.net- elektron kitabxana<br>20.www.azmif.net.-ədəbiyyatımızın ilkin qatlarıyla bağlı e-kitabxana<br>21.www.azeribooks.aznet.org.-Azərbaycan şair və yazıçılarının əsərləri<br>22.www.alatoran.org.-Azad Yazarlar ocağının saytı və eyniadlı dərginin e-variantı | |
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup müzakirəsi | + |
| | Praktiki tapşırıqlar | + |
| | Praktiki məsələnin təhlili | + |

| | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
|---|---|---|---|
| **Qiymətləndirmə** | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Layihə | . | 10 |
| | Quizlər | | 5+5 |

| | | | |
|---|---|---|---|
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Azərbaycan orta əsr ədəbi-mədəni həyatında poeziya xüsusi yer tutur. Poeziya ictimai problemlərin, hətta ayrı-ayrı etik, fəlsəfi və bu kimi görüşlərin rəmzlər və bədii ifadələrlə təcəssümü olmuşdur. Onun istər emosional-estetik, istərsə də tarixi-ictimai dəyəri böyük əhəmiyyət kəsb edir. Orta əsrlərdə zəngin poeziya ilə yanaşı müəyyən inkişaf yolu keçmiş olan poetika nəzəriyyəsi də bu dövrün nəzəri-ədəbi mənbələrində özünəməxsus yer tutur. Kursda xalqımızın mədəniyyətində mühüm yeri olan görkəmli şair və yazıçıların həyat və yaradıcılığı və onların yaratdıqları bir sıra ədəbi əsərlər təhlil olunur. Orta əsrlər klassik Şərq poetika və ədəbiyyatşünaslıq nəzəriyyəsinə dair mənbələrin araşdırılıb üzə çıxarılması həmin dövr poetika nəzəriyyəsinin ümumi nəzəriyyəsinin ümumi vəziyyəti, səviyyəsi haqqında fikir söyləməyə imkan verməklə yanaşı, klassik poetik irsin özünün düzgün dərk edilməsi və təhlili üçün açar kimidir. | | |
| **Kursun məqsədləri** | Yüksək elmi-nəzəri əsaslara və böyük tarixi-mədəni ənənələrə söykənən üç aparıcı poetologiya sistemi arasında (hind, yunan-Avropa və ərəb-müsəlman) öz zənginliyi, zərifliyi və dərin bədii – estetik məzmunu ilə seçilən Şərq poetikasının – bəlağət elminin əsas kateqoriyaları və bədii – üslubi fəndləri tədris edilməlidir. Azərbaycan ədəbiyyatının mənsub olduğu bu poetologiya məktəbi müasir elmi – nəzəri tələblərə cavab verən bir sistemdir. Bu sistem islam sivilizasiyası məkanında təşəkkül tapan ədəbi təfəkkürün tipini şərtləndirən bütöv bir system kimi dəyərləndirilir. Klassik Azərbaycan ədəbi nümunələri üzərində araşdırılan Şərq poetika nəzəriyyəsi ona xas kateqoriyaların milli bədii özünüifadə sistemində tutduğu yeri və onun bədii-estetik əhəmiyyətini müəyyənləşdirməyə imkan yaradır. Şərq poetik kateqoriyaları və istilahları ilə Avropa poetik kateqoriyaları arasında bəzi oxşar cəhətlər olsa da, klassik poeziyanın öyrənilməsində təkcə müasir prinsiplərə əsaslanmaq kafi deyildir. Çünki olduqca zəngin, mürəkkəb və rəngarəng orta əsr poeziyası bir çox cəhətdən müasir qəliblərə uyğun gəlmir. Hətda eyni bədii ifadə vasitələrinin özlərinin də arasında ciddi fərqlər vardır. Buna görə də klassik dövr əsərlərinin bədii-estetik xüsusiyyətlərini o dövrə xas olan kateqoriyalar və elmi bilik çərçivəsində təhlil və tədris etmək daha məqsədəuyğundur. Ədəbiyyat spesifik bir sahə olduğundan,onun tədrisində məqsəd elmi informasiyanın bolluğundan daha çox,daxili-mənəvi mədəniyyətin və əxlaqi-insani kamilliyin səviyyəsini yüksəltmək olmalıdır.Fənnin tədrisində məqsəd həm də tələbəyə hazır mühakimə əzbərlətmək yox,mühakimə yürütməyi öyrətməkdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Şərq mühitində Azərbaycan ədəbiyyatı fənnini öyrənərkən aşağıdakı nəticələr əldə olunur:<br>1.Tələbələr ədəbi-bədii nümunələri təhlil edə bilirlər;<br>2.Tələbələrdə bədii-estetik zövq formalaşır;<br>3. Klassik poetologiyanı hərtərəfli öyrənmək və təhlil etmək bacarığı əldə olunur. | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Dərsi pozmağa təşəbbüs edənlər (kənar söhbətlər,mobil telefondan istifadə,və s).auditoriyadan kənarlaşdırılır və bu da onların ümumi nəticələrinə təsir edir.<br>**Davamiyyət -** Davamiyyət balı tələbələrin dərslərdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması üçün nəzərdə tutulmuşdur. Buraxılmış hər icazəsiz və üzürsüz dərs üçün 0,5 bal çıxılacaq.<br>**Fəallıq -** Fəallıq balı tələbələrin ev tapşırığını düzgün şəkildə yerinə yetirməsi və sinifdə izah olunan dərs haqqında müzakirə və sual-cavabda iştirakı üçün nəzərdə tutulmuşdur<br>**Layihə -** Hər bir tələbəyə semestr boyu kurs işi hazırlamaq imkanı verilir. Verilmiş mövzu tam əhatə edilməklə 15-20 səhifəlik akademik yazının tələblərinə uyğun kurs işi təqdim olunmalıdır. Akademik normaya uyğun olmayan tərtibə görə və mövzu tam əhatə edilmədiyi təqdirdə az bal verilir. Kurs işində mövzuya uyğun müstəqil təhlil tələb olunur. Təqdimatların istiqaməti keçirilən mövzulara | | |

| | | | |
|---|---|---|---|
| | uyğun olaraq auditoriyada seçilir. Final imtahanına iki həftə qalmış baxışdan, qrup müzakirələrindən sonra qiymətləndirilir.<br>**Kuizlər** - Midterm və final imtahanlarından əvvəl kursun mövzuları üzrə tapşırıqların yerinə yetirilməsinə görə 5 bal dəyərində veriləcəkdir | | |
| **Cədvəl (dəyişdirilə bilər)** | | | |
| **Həftə** | **Tarix (planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | | Orta əsr Şərq poetikasının qaynaqları<br><br>Bəlağət və onun tərkib hissələri. Bəlağətin strukturası. Bəlağət: Fəsahət; Məani; Bəyan; Bədii. | 1. Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.6-15<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.72-135 |
| 2. | | Klassik Azərbaycan ədəbiyyatı və bədiyyat<br><br>Mühəssənati-ləfziyyə (ləfzi, söz gözəllikləri). Mülhəqati-cinas (cinasın əlavələri) | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991, s.22<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.148-151 |
| 3. | | Qəlb: Qəlbi-bəiz; Qəlbi-küll; Qəlbi-müntəzəm; Qəlbi (məqlubi)-muiəvvəc; Qəlbi-müstəvi<br><br>Müqəttə. Müvəssəl. Riqta. Xifai. Müsəhhəf | 1. Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,<br><br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.151-202 |
| 4. | | Bədiyyat və Azərbaycan ədəbiyyatı. Söz gözəllikləri və ya ləfzi gözəlliklər.<br><br>Əks, təbdil və tədvir. Züqafiyəteyn. İştiqaq. Lüzum ma la yəlzəm və ya inat. Məzduc. Muvəşşəh. Mudəvvər. Müləmm. Mürəbbə. Səc. Rəddül əcüz ələs-sədr. Təkrir. Tərsi. Touzi. Cinas (təcnis). Həzf. | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.37<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.202 |
| 5. | | Məna gözəllikləri: Bədii mükalimə və ya sual. Bədii xitab. İrsəlül-məsəl və ya təmsil. İstifhəm. İham və ya touriyyə. İhamul-vəsl. Ləff və nəşr. Lüğəz. Maddeyi-tarix. Məzhəbül kəlam.<br><br>Mübaliğə. Müəmma. Mütəzəlzil. Təqid. Təqsim. Təzad. Təkidüz-zəmim bima yuşbih ül-məh. Təkidül-mədh bima yuşbihuzzəmm. Təlil. tənasüb və ya muraatun-nəzir. Tənsiqüs-sifat. Təfriq. Təcahülül-arif. | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.50<br><br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.235 |

| | | | |
|---|---|---|---|
| 6. | | Təşbih və onun növləri: Vəchüş-şəbəh müfrəd. Vəchüş-şəbəş-əl-mürəkkəb.<br><br>Müqayisə sifəti qeyd olunmur. Müqayisə sifəti təşbihdə qeyd edilir. | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.103<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.235 |
| 7. | | Təşbih ədatları: Ət-təşbihul-mursəl-sadələşmiş təşbih. Müəkkəd-təkidli təşbih. Müfəssəl təşbih. Üstünlük təşbihi.<br><br>Şərti-təşbih (Təşbihi-məşrut). Yığcam təşbih. Müstəqil təşbih. | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.110<br><br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s. 250 |
| 8. | | Şərti-təşbih (Təşbihi-məşrut). Yığcam təşbih. Müstəqil təşbih. Kinayəli təşbih. Ləğvetmə təşbihi.<br><br>Aralıq imtahanı | 1. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s. 250 |
| 9. | | Cəm. Cəm və təqsim. Cəm və təfriq.<br><br>Həşv. Hüsnül-məqtə. Hüsnül-mətlə. Hüsnüt-təxəllüs. | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991,s.114<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s. |
| 10. | | Quran bəlağəti və klassik Azərbaycan ədəbiyyatı<br><br>Mətn üzərində iş | 1.Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991<br>2. Quliyeva M. Şərq poetikasının əsas kateqoruyaları. Bakı, Maarif, 2010,s.135; 301 |
| 11. | | Əruz:<br>Azərbaycan əruzu; | 1.Əkrəm C. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı, Elm,1977,s.67,134,164<br>2.Quliyev T. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu. AMEA M. Füzuli ad. Əlyazmalar İnstitutu. Bakı, Nurlan, 2011 |
| 12. | | Həzəc bəhri<br><br>Rəməl bəhri | 1.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. Dil və ədəbiyyat jurnalı,Bakı, 1999 |

| | | | |
|---|---|---|---|
| 13. | | Rəcəz bəhri<br><br>Müzare bəhri | 1.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. Dil və ədəbiyyat jurnalı,Bakı, 1999 |
| 14. | | Münsərih bəhri<br><br>Müctəc bəhri | 1.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. Dil və ədəbiyyat jurnalı,Bakı, 1999 |
| 15. | | Mütəqarib bəhri<br><br>Xəfif bəhri; Səri`` bəhri | 1.Məmmədzadə B.M. Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn. Dil və ədəbiyyat jurnalı,Bakı, 1999 |
| | | **Final imtahanı** | |